*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 22 aprel 2017-ci il № 30 (2147) Qiyməti 25 qəpik


## Genişmiqyaslı təlimlərin döyüş atışlı mərhələsi icra olundu



*Ölkəmizin etibarlı müdafiəsini təmin etmək məqsədilə hərbi əməliyyatlarda böyük önəm daşıyan ən müasir döyüş vasitələrilə təmin edilmiş müxtəlif qoşun növlərinə məxsus hissə və bölmələrin birgə fəaliyyətinin və qarşılıqlı əlaqəsinin planlaşdırılması, təşkili, eyni zamanda müdafiə və hücum əməliyyatlarının aparılması üçün müasir silah sistemlərinin istifadə edilməsilə təlimlərin keçirilməsi Silahlı Qüvvələrin döyüş potensialının artırılmasında mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, aprelin 16-da qoşunların döyüşə hazırolma qabiliyyəti, qüvvə və vasitələrin idarə olunmasının təşkili, onların qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədilə döyüş şəraitinə maksimum uyğunlaşdırılmış vəziyyətdə başlanan genişmiqyaslı təlimlər yekunlaşıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatlarında qeyd edildiyi kimi, təlimlərə ordumuzun müxtəlif Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə, Quru Qoşunlarının bölmələri, o cümlədən zirehli döyüş texnikaları, raket və artilleriya qurğuları, reaktiv yaylım atəş sistemləri, müxtəlif təyinatlı döyüş aviasiyası, eləcə də yeni növ radioelektron kəşfiyyat vasitələri və pilotsuz uçuş aparatları cəlb olunub.

Qeyd etmək lazımdır ki, Müdafiə Nazirliyinin planlı şəkildə təşkil etdiyi kompleks döyüş hazırlığı tədbirləri bütün qoşun növlərində şəxsi heyətin taktiki və ixtisas bacarığının artırılmasına yönəldilib. Quru qoşunlarında, Hərbi Hava və Hərbi Dəniz qüvvələrində şəxsi heyət gündəlik məşğələlərdə, praktik dərslərdə, poliqonlarda keçirilən təlimlərdə, taktiki vərdişlərə yiyələnir, qarşılıqlı əlaqələri möhkəmlədir, sərəncamlarına verilmiş modern silahlardan və döyüş texnikasından istifadə etməyi mənimsəyir. Ayrı-ayrı qoşun növlərində və hərbi hissələrdə döyüş vərdişlərinin gücləndirilməsi üçün irimiqyaslı təlimlər keçirilir.

(Ardı 2-ci səhifədə)

# Genişmiqyaslı təlimlərin döyüş atışlı mərhələsi icra olundu

(Əvvəli 1-ci səhifədə)



Ordumuzun peşəkarlığının artırılması üçün indiyədək mühüm addımlar atılıb və bu proses davam etməkdədir. Ordu quruculuğu Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir. Dövlətin ən vacib atributlarından olan Silahlı Qüvvələrin qarşısında taleyüklü vəzifələr durur və bunları çiyinlərinə götürə bilməsi üçün orduya yüksək səviyyədə diqqət yetirilməsi günümüzün doğurduğu aktuallıqdır. Müstəqilliyimizin və suverenliyimizin keşiyində dayandığından dövlət rəhbərliyi Silahlı Qüvvələrimizin möhkəm, qarşısında dayanan taleyüklü vəzifələri yerinə yetirməyə qadir olması üçün bütün lazımi tədbirləri görür.

Ordumuzun daha da gücləndirilməsi və döyüş potensialının artırılması üçün ayrılan vəsait hesabına hərbi hissələrimizdə böyük dəyişikliklər baş verib. Bu dəyişikliklər təkcə ordunun döyüş texnikası və avtomobil parkının yenilənməsini, günün tələblərinə cavab verən müasir silah və texnikanın alınmasını əhatə etmir. Hazırda orduda məişət problemlərinin həlli üçün dövlət xeyli vəsait ayırır və bu vəsaitlə hərbi hissələrimizin bütövlükdə infrastrukturunun təzələnməsi istiqamətində iş aparılır, şəxsi heyətin döyüş hazırlığını artırması üçün imkanlar genişləndirilir.



Hazırda bölmələrimiz həm düşmənlə üzbəüz təmas xətti boyunca müdafiə mövqelərində ayıq-sayıq döyüş növbəsi aparır, həm də hazırlıqlı zabit və mütəxəssislərimiz tərəfindən həyata keçirilən tədbirlərdə müasir döyüş texnikalarının sirlərinə yiyələnir, taktiki bacarıqlarını artırırlar. Döyüş bacarığının yüksəldilməsi üçün atılan bu addımlar Azərbaycan Silahlı Qüvvələrinin gücünə güc qatır, Qarabağ münaqişəsinin həllilə bağlı aparılan danışıqlarda ölkəmiz üçün tutarlı arqumentə çevrilir.

2016-cı il aprelin ilk günlərində təmas xəttində baş vermiş hadisələr zamanı Silahlı Qüvvələrimizin bölmələri 2 min hektardan artıq ərazini azad etdi və daha çox ərazi əməliyyat baxımından nəzarətimiz altına keçdi. Ermənistan ordusu kontingentinin törətdiyi təxribat və bölmələrimizin ona sərt cavabı göstərdi ki, Azərbaycan Ordusu bu gün güclü döyüş hazırlığına malikdir.

Ötən il noyabrın 12-də irimiqyaslı təlimlər ərəfəsində cəbhə bölgəsinə səfəri zamanı cəsur Azərbaycan zabit və əsgərlərilə görüşərkən Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin aprel döyüşlərində ordumuzun şəxsi heyətinin fəaliyyətinə yüksək qiymət verməsi zabit, gizir və əsgərlərimizin xidməti məsuliyyətini daha da artırıb: "Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik".

Doğrudan da, hər bir ordunun gücü təkcə silah və texnikanın sayından ibarət deyil. Eyni zamanda həmin silah və texnikanı hərəkətə gətirən, döyüş meydanında peşəkarlıqla idarə edən, yüksək döyüş qabiliyyətinə, ən başlıcası isə möhkəm mənəvi-psixoloji hazırlığa malik şəxsi heyətin, daha doğrusu, zabit və əsgərlərin olması zəruridir. Şəxsi heyətin döyüş qabiliyyətinin səviyyəsi, nizam-intizamı, taktiki bacarığı hər şeydən əvvəl zabit heyətinin öz vəzifələrinə professional münasibətindən asılıdır.

Müdafiə Nazirliyinin keçirdiyi genişmiqyaslı təlimlərin məqsədi hərbi hissə komandirləri və qərargah zabitlərində əməliyyatların uğurlu təşkili və aparılması üçün tez və düzgün qərar çıxarıb düşmənə üstün gəlmək bacarığı aşılanmasını, "hərbi əməliyyatlara" cəlb olunan qüvvələrin idarəetmə vərdişlərinin möhkəmlənməsini, ayrı-ayrı hissə və bölmələrin müxtəlif şəraitlərdə qarşılıqlı hərəkətinin təkmilləşdirilməsini, qarşıya qoyulan tapşırıqların xarakterinə uyğun olaraq, şəxsi heyətdə mənəvi-psixoloji hazırlıqla bağlı işin müasir tələblər səviyyəsində aparılmasını, bir sözlə, bütün xidmət və bölmələrin fəaliyyətini bir məcraya yönəltməyi təmin etməkdən ibarətdir.



Təlimlər zamanı çətin relyef şəraitində müasir ümumqoşun döyüşü və əməliyyatların keçirilməsinin müxtəlif üsulları məşq etdirilir.

Genişmiqyaslı təlimlərin keçirilməsi planına uyğun həyəcan siqnalı ilə qaldırılan qoşunlar və komanda idarəetmə məntəqələri əməliyyat təyinatı rayonları istiqamətində hərəkət ediblər. Qarşıya qoyulmuş tapşırığa uyğun yürüş zamanı şəxsi heyət intizam və mütəşəkkillik nümayiş etdirib. Kolonların hərəkəti komendant xidməti tərəfindən peşəkarlıqla tənzimlənib.

Sonrakı mərhələdə qoşunlar mobil hərəkət edərək cəmləşmə rayonlarını tutub və təlimin tapşırıqlarına uyğun qruplaşmalar yaradılıb. Eyni zamanda, komanda idarəetmə məntəqələrində döyüş fəaliyyəti təşkil olunub. Qərargahlarda verilən tapşırıqlar aydınlaşdırılıb, vəziyyət qiymətləndirilərək operativ qərarlar qəbul edilib. Qarşılıqlı fəaliyyətlərin təşkili məqsədilə əvvəl qəbul edilmiş qərarlar maket üzərində və ərazidə dəqiqləşdirilib.



Manevrlərə cəlb edilmiş qüvvələrin çevik idarə olunması və fəaliyyətlərin uzlaşdırılması məsələləri ətraflı işlənib.

Təlimlərin növbəti mərhələsində bölmələr yerləşdikləri rayonlardan açılma həddinə çıxmaq üzrə tapşırıqları yerinə yetiriblər. Artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya və xüsusi növ qoşunların digər bölmələri tapşırıqları bacarıqla yerinə yetiriblər.

Təlimlərin bu mərhələsinin əsas xüsusiyyəti qoşunların qaranlıqda hərəkətinin təşkili və həyata keçirilməsi olub ki, bu da işığı maskalama (gizlətmə) üzrə əlavə tədbirlərin görülməsini tələb edir.

Həmçinin, tapşırıqların dəqiq və vaxtında icra edilməsi məqsədilə qoşunların hərtərəfli təminatına, komendant və mühəndis xidmətlərinin fəaliyyətinə xüsusi diqqət yetirilib.

Təlimlərə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin dinamik dəyişən vəziyyət və qəbul edilən qərarlara dair məruzələrini dinləyib.

Qarşılıqlı fəaliyyətin səmərəliyinin artırılması və qoşunların idarəolunması üzrə göstərişlər verilib.

Verilən taktiki müdaxilələr üzrə dəyişən şəraitdə qoşunların tapşırıqları düzgün qavraması və yerinə yetirməsi məqsədilə Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hərbi hissələrin və bölmələrin ərazidə praktiki fəaliyyəti yoxlanılıb.

Əsas diqqət silahlanmaya yeni qəbul edilmiş silah və hərbi texnikanın tətbiqi ilə taktiki fəaliyyətin yeni üsullarına yönəldilib.

Nəhayət, genişmiqyaslı təlimlərin döyüş atışlı əsas mərhələsi ayrı-ayrı qoşun növlərinə məxsus bölmələr tərəfindən icra olunub. Bu mərhələdə artilleriya, hava hücumundan müdafiə vasitələri, aviasiya, xüsusi növ qoşunlar, eləcə də digər birləşmələr silah və texnikanın tətbiqi ilə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər. Müxtəlif poliqonlarda və müasir avadanlıqla təchiz edilmiş təlim sahələrində döyüş atışları, bölmələrin və atəşin manevrləri uğurla tamamlanıb.

Müasir ümumqoşun döyüşünün prinsiplərinə riayət etməklə ərazinin mürəkkəb şəraitində və şərti düşmənin ehtimal olunan fəaliyyətini nəzərə alaraq, qoşunların, eləcə də idarəetmə sistemlərinin daha sıx qarşılıqlı əlaqədə səmərəli tətbiqi həyata keçirilib.

**"Azərbaycan Ordusu", fotolar Natiq İSAYEVİNDİR**

# Cəbhə bölgəsində Müdafiə Nazirliyinin geniş kollegiya iclası keçirilib

*Müdafiə Nazirliyinin rəhbər heyəti, birlik, birləşmə komandirləri, onların müavinləri, xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri, digər məsul zabitlərin iştirakı ilə cəbhə bölgəsində döyüş və mənəvi-psixoloji hazırlıq, eləcə də təlimlərin yekunlarına həsr olunmuş geniş kollegiya iclası keçirilib.*






Əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollegiya iclasında məsul şəxslərin məruzələri dinlənilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Silahlı Qüvvələrin 2017-ci qış tədris dövrünün birinci rübündə xidməti döyüş fəaliyyətinin nəticələri" mövzusunda məruzə ilə çıxış edib.

Təlimlərin nəticələrini də təhlil edən Müdafiə naziri bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müxtəlif poliqonlarda keçirilən təlimlərdə qarşıya qoyulan məqsəd və vəzifələr uğurla yerinə yetirilib.

Şəxsi heyətin döyüş qabiliyyəti və mənəvi-psixoloji hazırlığını xüsusi qeyd edən Müdafiə naziri təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayaraq, Ali Baş Komandanın Silahlı Qüvvələr qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

Cəbhəboyu zonada mövcud vəziyyət barədə danışan Müdafiə naziri hər an aktiv döyüşlərə hazır olmaq, düşmənə rahatlıq verməmək, onun fəaliyyətini daim nəzarətdə saxlamaq, istənilən hərəkətlərinin qarşısını qabaqcadan qətiyyətlə almaq və ona maksimum ciddi zərər vurmaq məqsədilə ön xətdə yerləşən birləşmə komandirlərinə konkret tapşırıqlar verib.

Kollegiya iclasının sonunda müzakirə olunan məsələlərlə bağlı qərar qəbul olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

*Xalqımıza qələbə sevinci bəxş etmiş aprel zəfərinin birinci ildönümü ölkəmizdə böyük coşqu ilə qeyd edildi. Dövlətimizin uğurlu ordu quruculuğu siyasətinin nəticəsi olaraq güclənən Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti ötən ilin aprelində cəbhə xəttində düşmənə sarsıdıcı zərbə endirməklə ərazi bütövlüyümüzün qarantı olduğunu bir daha sübuta yetirdi. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, aprel döyüşlərində qazanılan qələbə Azərbaycan Ordusunun əsgər və zabitlərinin vətənpərvərliyini, döyüş ruhunu təsdiqlədi.*

*Ön xətdən reportaj*

# İnam böyük qüvvədir



Həmişə bu ərazilərə ezamiyyətə gələndə 1993-94-cü illəri xatırlayıram. Onda bu torpaqlar uğrunda gərgin döyüşlər gedirdi. Əvvəlcə pərakəndə halda mövcud olan ordu qarşısına qoyulan tapşırıqları yerinə yetirməyə qadir olmasa da, ümummilli liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ordu quruculuğunda əsaslı dönüş yarandı. Qısa vaxtda nizami ordunun yaradılmasına nail olan müdrik rəhbər cəbhə xəttinə ardıcıl səfərlər etdi, döyüşən hərbi hissələrin şəxsi heyəti ilə görüşdü. Həmin görüşlərin iştirakçılarından olmuş yüksək rütbəli zabitlərimizdən biri söhbətimizdə demişdi ki, Ulu Öndərin səngərdə Azərbaycan döyüşçüsü ilə görüşməsi hər birimizə əsl qələbə əzmi aşılayırdı.

Yolboyu gənc həmkarıma da müharibə illəri ilə bağlı ağrılı-acılı xatirələrimdən danışıram. "O zaman belə mütəşəkkil ordu yox idi, ordumuz yenicə formalaşırdı, silah-texnika, təminat sarıdan vəziyyət dözülməz idi. Əsgərlərin məişətini isə dilə gətirməyə çətinlik çəkirəm. Cəbhə xəttində baş verən uğursuzluqlar hamıda inamsızlıq doğururdu..."

Bir azdan qərargahın qarşısındaydıq. Aprel döyüşlərinin fəal iştirakçısı, təcrübəli zabit Seymur Həbibullahov deyir: "Düşmənlə üz-üzə mövqelərimizdə hər şey qaydasındadır, ən başlıcası, əsgərlərimiz ayıq-sayıq döyüş növbətçiliyində Vətənimizi düşməndən mətinliklə qoruyurlar".

Sonra ön xəttə yola düşmək üçün UAZ-a əyləşib qarşıdakı mövqelərə gedirik. Lələtəpə istiqamətində yollara maraqla baxdığımı görən zabit Həbibullahov deyir ki, dövlət başçımızın sərəncamından sonra Cocuq Mərcanlıya asfalt yol çəkilir. "İndi həmin istiqamətdə qızğın işlər gedir, gəlin, başqa mövqelərə gedək. Qısa vaxtdan sonra bu kənd doğma sakinlərini ağuşuna alacaq."

Düşünürəm ki, insan övladına illərlə qurub-yaratdığı, şirin xatirələrinin yuva saldığı doğma ev-eşiyindən əziz heç nə ola bilməz. Nankor ermənilər tarix boyu havadarlarının gücü ilə torpaqlarımıza basqın ediblər, yüz minlərlə soydaşımız ata-baba yurdundan zorla didərgin salınıb. Düşmənin Vətənimizdə törətdiyi soyqırımlar illər ötsə də, yaddaşımızdan çıxmır, əksinə, qəlbimizdə intiqam hissini artırır. Bu gün ordu sıralarında xidmətdə olan gənclərimiz də bu hisslərlə yaşayır və düşmənə öz sözünü demək üçün haqq savaşına hər an hazırdırlar.

Ön xətdə döyüş növbətçiliyini həyata keçirən hərbi bölmədə öncə gənc zabit Rəşad Süleymanovla görüşürük. Şəxsi heyətin yüksək döyüş əzmində olduğunu bildirən hərbçiyə görə, Azərbaycan əsgəri işğalda olan torpaqlarımızı azad etməyə qadirdir.

- Əsgərlərimizin ordu sıralarına vətənpərvərlik ruhunda qatılması ən vacib şərtlərdən biridir, - deyir zabit. - Bu gün cəmiyyətimizdə istənilən qədər vətənpərvərlik, qəhrəmanlıq nümunələri vardır. Aprel döyüşlərində fədakarlıq göstərmiş hərbçilərimizin hər biri şəxsi heyətimizə layiqli örnəkdir. Azərbaycanın dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğuna göstərilən diqqət və qayğı gənc nəsli Vətənə sədaqətlə xidmət etməyə ruhlandırır. Əsgərlərimiz hər döyüş növbəsini ciddi sınaq hesab edərək torpaqlarımızı düşməndən mərdliklə qoruyurlar.

Gənc zabit qeyd edir ki, komandanlıq döyüşçülərin məişət şəraitini daim diqqətdə saxlayır. Şəxsi heyətin təminatına ciddi önəm verilir, əsgərlər milli xörəklərlə qidalanır. Hamam-camaşırxana xidməti yüksək tələblər səviyyəsində qurulub. Bütün bunlar əsgərlərin xidmətə marağını, məsuliyyət hissini daha da artırır.

Döyüş növbətçiliyinə təlimatlandırılan əsgərlərdən bir neçəsi ilə görüşüb fikirlərini, arzularını qələmə alıram. Gənc döyüşçü Elnur Alıyev hərbi xidmətə Tovuz rayonundan çağırıldığını, Vətənimizi, torpaqlarımızı qorumağa hazır olduğunu bildirir: "Mən də sevinirəm ki, bir vətəndaş olaraq dövlətim, xalqım qarşısında borcumu ödəyirəm. Döyüş növbətçiliyini yerinə yetirəndə vacib əhəmiyyətli bir vəzifənin öhdəsindən gəldiyimi düşünürəm və bu hiss mənə sonsuz qürur aşılayır".

Emin Lətifzadə manqanın ən bacarıqlı əsgərlərindən biridir, baş atıcı vəzifəsindədir. Təcrübəli döyüşçünün sözlərinə görə, xidmət etdikləri hərbi hissənin şərəfli döyüş yolu onlar üçün qürur və iftixar mənbəyidir. "Aprel döyüşlərində qazanılan qələbədə əməyi olanlar arasında hərbi hissəmizin də adı xüsusi çəkilir. Burada xidmət etmiş bir çox əsgərlər həmin döyüşlərin iştirakçısı olublar. İndi biz onların davamçıları olmağa, digər ərazilərimizi də işğaldan azad etməyə hazırıq".

- Xidmətə 13 ay öncə Göyçay rayonundan gəlmişəm, - deyə əsgər Qadir Hüseynov da həvəslə söhbətimizə qoşulur. - Başqa yaşıdlarım kimi, mən də Vətənimizin müdafiəçiləri sırasında olmaqdan qürurluyam. Əsl vətəndaş, ilk növbədə, əsgər kimi yetişməli, doğma yurdunu düşmənlərdən qorumağı bacarmalıdır. Bölmə komandirləri bizə aprel döyüşlərindən maraqlı epizodlar danışır, Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıq nümunələrini misal çəkirlər.

Ön xəttə səfərimizi xoş təəssüratla başa vurub qayıdırıq. İnanırıq ki, bu gün səngərdə qəhrəmanlıq göstərməyə qadir olan əsgərlərimizin timsalında Azərbaycanın vətənpərvər gəncliyi formalaşır və bu böyük qüvvənin hesabına tezliklə torpaqlarımız işğaldan azad ediləcəkdir.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu", foto çavuş Namiq PƏNAHOVUNDUR**

# Şəmkirdə Milli Qəhrəman İsgəndər Aznaurovun xatirəsi anılıb

*Şəmkir rayonundakı "N" hərbi hissəsində Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun xatirəsinə həsr olunan anım mərasimi keçirilib.*





Əvvəlcə mərasim iştirakçıları İsgəndər Aznaurovun adını daşıyan məktəbin qarşısındakı büstü önünə əklil qoyaraq şəhidin xatirəsini ehtiramla anıblar.

Hərbi hissənin əsgər klubunda davam edən mərasimdə ümummilli lider Heydər Əliyevin, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həlak olan şəhidlərimizin xatirəsi hörmət və ehtiramla yad edilib.

Sonra polkovnik-leytenant Loğman Xanlarov Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun həyat və döyüş yolu barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, İsgəndər Aznaurov 1956-cı il avqustun 16-da Özbəkistan Respublikasının Buxara vilayətində anadan olub. 1980-ci illərin sonlarında Fərqanədə milli zəmində baş verən məlum hadisələrdən sonra bir çox ahısqa türk ailəsi kimi onların ailəsi də Azərbaycana pənah gətirib və Şəmkir rayonunun Kür qəsəbəsində məskunlaşıb. 1992-ci ildən Azərbaycan Ordusunda könüllü olaraq zabit kimi xidmət edən İsgəndər Aznaurov Gədəbəy rayonunun Şınıx bölgəsində erməni quldur dəstələrinə qarşı mərdliklə vuruşub, Mutludərə, Ər dağı, Ləzgi daşı və digər strateji yüksəkliklərdə şücaət nümunələri göstərib.

1993-cü ilin baharında şəhid olan İsgəndər Aznaurova yalnız iki il sonra ulu öndərimiz Heydər Əliyevin Fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilib.

Dövlətimiz İsgəndər Aznaurovun xidmətlərini yüksək qiymətləndirib. İndi onun adına yaşayış məntəqəsi, küçə və məktəb var. Vaxtilə döyüşdüyü səngər bu gün "İsgəndər qalası" adlanır və igid oğullarımız bu qalanın keşiyində ayıq-sayıq dayanaraq düşmən hücumlarının qarşısını mərdliklə alırlar.

İsgəndər Aznaurovun döyüşçü dostları Dilqəm Əliyev, Sənan Quliyev, Əlyar Novruzov, Şahin Adıgözəlov qəhrəman döyüşçü ilə bağlı xatirələrini bölüşüblər.

Şınıx kənd camaatı adından çıxış edən İsmayıl Bayramov bildirib ki, Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun əziz xatirəsi ölümün caynağından xilas etdiyi şınıxlıların xatirələrində əbədi yaşayacaqdır.

Mərasimdə Azərbaycanın Milli Qəhrəmanı, şəhid İsgəndər Aznaurova həsr olunan videoçarx nümayiş etdirilib.

Sonda Kür qəsəbəsinin Mədəniyyət Evinin kollektivinin və orta məktəb şagirdlərinin birgə hazırladığı kompozisiya təqdim olunub.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Aprel döyüşlərində iştirak etmiş zabitlər gənclərlə görüşüblər

*Aprelin 18-də Beynəlxalq Muğam Mərkəzində aprel döyüşlərində iştirak etmiş yüksək rütbəli zabitlərin gənclər təşkilatlarının nümayəndələri ilə görüşü keçirilib. Görüşü Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu Müdafiə Nazirliyi və Beynəlxalq Muğam Mərkəzi ilə birgə təşkil edib.*

AZƏRTAC xəbər verir ki, əvvəlcə Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev aprel döyüşlərinin önəmindən danışıb, bu qələbənin Azərbaycan əsgərində, eləcə də xalqımızda, gənclərdə böyük ruh yüksəkliyi yaratdığını vurğulayıb.

Fərhad Hacıyev fondun fəaliyyət göstərdiyi 5 ildə vətənpərvərlik haqqında 463 layihənin maliyyələşdirildiyini bildirib, həmçinin, qurumun cari və gələcək fəaliyyətində vətənpərvərlik mövzusunda layihələrə xüsusi önəm veriləcəyini deyib.

Sonra aprel döyüşlərinin iştirakçıları - polkovnik-leytenant Vüqar Abduləzimov, polkovnik-leytenant Xəqani Cəfərov, polkovnik-leytenant Elmar Zeynalabdinov və leytenant Səbuhi Mehdizadə Azərbaycan Ordusunun aprel zəfərindən danışıb, gənclərin çoxsaylı suallarını cavablandırıblar.

Zabitlər düşmənin Azərbaycan əsgərinin qarşısında durmaq gücündə olmadığını, aprel döyüşlərinin də bunu sübut etdiyini deyiblər. Bildirilib ki, aprel döyüşlərində erməni əsgərlərinin silahlarını ataraq qaçmaları bunu bir daha göstərdi. Bu gün Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Ordumuzun həm şəxsi heyətinin döyüş hazırlığı, həm ruh yüksəkliyi, həm də hərbi-texniki təchizatı yüksək səviyyədədir. Silahlı Qüvvələrimiz ən müasir silahlarla təchiz olunur. Aprel döyüşlərində onların yalnız kiçik bir qismindən istifadə edildi. Əgər düşmən torpaqlarımızdan öz xoşuna çıxmasa,




Azərbaycan əsgəri ona daha neçə-neçə aprel məğlubiyyəti yaşadacaq.

Qeyd olunub ki, ötən ilin aprelində erməni təxribatının qarşısını qəhrəmanlıqla alan Silahlı Qüvvələrimiz əks-hücuma keçərək minlərlə hektar Azərbaycan torpağını, bir neçə strateji yüksəkliyi, o cümlədən Lələtəpəni və sonralar Bayraqtəpə adlandırılacaq əhəmiyyətli yüksəkliyi düşmən tapdağından azad ediblər. Talış yüksəkliyinin azad olunması nəticəsində Goranboyun Tapqaraqoyunlu kəndinə təhlükə yaradan düşmən təxribatlarının qarşısı alındı.

Zabitlər bildiriblər ki, ötən ilin aprelində Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində digər strateji yüksəkliyin - Lələtəpənin düşməndən azad edilməsi Cəbrayıl rayonunun işğalda olmayan yeganə kəndi - Cocuq Mərcanlı üçün təhlükəni aradan qaldırdı. Kənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Azərbaycan Ordusunun 1994-cü ilin əvvəlində keçirdiyi Horadiz əməliyyatı zamanı kənd erməni işğalından azad olunub. 2016-cı ilin aprel əməliyyatlarına qədər Lələtəpə strateji yüksəkliyi Ermənistan ordusunun işğalı altında olduğundan Cocuq Mərcanlı kəndində yaşayış qeyri-mümkün idi. Lakin ötən ilin aprelində Azərbaycan Silahlı Qüvvələrinin yüksəkliyi azad etməsindən sonra kənddə təhlükəsiz yaşamaq imkanı yaranıb.

Qeyd olunub ki, Azərbaycan əsgəri qələbə ruhuna köklənib, mənfur düşməni torpaqlarımızdan qovub-çıxarmaq əzmindədir və bunun üçün Ali Baş Komandan İlham Əliyevin əmrini gözləyir.

Görüşdə aprel döyüşlərinə həsr olunmuş film nümayiş olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***20 aprel 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 112 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Berdavan, Barekamavan, Dovex kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli, Bala Cəfərli, Kəmərli, Qaymaqlı kəndlərində, Berd rayonunun Çinari, Ayqedzor, Mosesqex kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu, Ağdam, Əlibəyli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Qaraqaşlı, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli və Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***21 aprel 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 140 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan, Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qaymaqlı kəndlərində, Berd rayonunun Çinari, Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Yarımca, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Novruzlu, Cəvahirli, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Seyidəhmədli və Aşağı Veysəlli kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.




# "Ürəklərin keşiyini çəkirəm"

*(oçerk)*

Kəpəz Göyçənin Qamışlı kəndindən də əzəmətiylə görünürdü. Bu ecazkarlıq bir əli Qaradağdan yapışan kəndin camaatına könül xoşluğuydu. Səhərlər ağacların budaqlarını sığallayan, yarpaqlarını titrədən yellər indi ovunmayan bir həsrətin harayçısıdı...

Körpəliyindən Anarın da baxışlarının Qamışlının təbiətinə tamsınmasından, könlünün saza-sözə köklənməsindən kimsənin xəbəri yoxuydu. Özü də bilmirdi ki, bu, nə maraqdı, nə də təşnəlikdi. Saz səsi eşidəndə ürəyi uçunurdu, kəlamlar misralaşanda könlü Kəpəzdən də, Qaradağdan da sürüşən yellərə əl eləyirdi. Yel əsəndə də ürəyi uçunurdu, kəsəndə də, yağış yağanda da, kəsəndə də başaçılmaz duyğular yaşayırdı. Bulaqların zümzüməsini dinləməyə meyilliydi. Təbiətin sükutunu pozan şimşək çaxışını sevməzdi.

Yaddaşının başlanğıcı 80-ci ildi. Zamanında görə bilmədiyindən kimlərinsə körpəliyinə ad olan illərinin işığı qalmayıb. 2 yaşın işığı hələ də Anar Eldar oğlunun yaddaşında yaşamaqdadı. Qamışlının möcüzə təbiətini dağ-dağ, bulaq-bulaq, çəmən-çəmən, ağac-ağac gözlərinə, gözlərindən könlünə köçürərdi. Çaykənd çayının dalğalarının pıçıltılarını dinləyərdi, cığırlar-izlər ayaqları altından sürüşə-sürüşə kəndlərinin söykəndiyi qaraca dağa - Qaradağa sarı qaçanlara qoşulardı, çəmən-çəmən dolaşardı, çiçək-çiçək gülümsünərdi, bulaq-bulaq durulaşardı - lilpar tapmağa səbri çatmayanda qoşa ovuclarını dolça eləyərdi,...

İllərin o üzündə qalan günlərin, ayların, qədəmləri hələ möhkəmlənməyən illərin kövrəkliyinə, kövrəkliyi kürlük edəndə sızıltısına atası Eldarın bir kəlamı təsəlli olardı: "Su, axdığı yerdən bir də axar, oğlum..."...

Təbiət onu sevənlərin gözlərini də doydurur, könüllərini də - yarpaqlarının titrəyişiylə, yellərinin əsməsiylə, çaylarının kükrəyişiylə, bulaqlarının zümzüməsiylə, buludlarının çaxnaşmasıyla,... sevilir də, sevənlərini sevir də. Təbiəti o da duyardı, təbiətdən duyduqlarını anası Minayənin, atası Eldarın dedikləri tamamlayardı.

Atası mühəndisiydi. Uşaqlığından onun da, evdar qadın olan anasının da söhbətlərini maraqla dinləyərdi. İllər beləcə ötüşərdi. Atasının işi ilə əlaqədar Göygöl rayonuna köçdülər.

Birinci sinifdə oxuyurdu. O gecə qışın sazağını Anarın dediyi kəlmələr çiliklədi: "Həkim olacam..." - sorğusuz cavab Eldar müəllimi də kövrəltdi, Minayə xanımı da. Anası onu bağrına basdı, atası saçlarını oxşadı. Bu məhrəm təmaslar onu bir boy da dikəltdi: "...həm də hərbçi həkim olacam...". Bu istək düşüncələrinə haradan hopmuşdu, necə hopmuşdu - aradan illər keçəndən sonra da bilmir. Heç kim - nənə-baba da, ata-ana da, müəllimlər də 6 yaşlı uşağın gələcəyini bu yaşda müəyyənləşdirdiyinə inanmaq istəmədi. Həkimlik bəlli. Bəs hərbçi həkim olmaq niyyəti bu yaşda uşağın düşüncələriylə necə məhrəmləşmişdi? İllər keçib, bu sualın cavabı yoxdu (olmayacaq da).

Hərdən Qamışlını xatırlayırdı. İstəyirdi saçlarını yenə Qaradağın doğma yelləri daraqlasın, yazda günlü yağışlara qoşa ovuc açsın, çəmən-çəmən gümüldənən çiçəklər ayaqlarına dolaşsın, payızda dumana-çiskinə sarı qaçsın, dumandan-çiskindən qaçsın,...

Qamışlıya ad olan xatirələrin cazibəsindəydik. O xatirələrdən birini bəşərilik işığı bildim (az sonra bu işığın gurlaşacağını da hiss elədim): Uşaqlığında Çaykənd çayından tutduğu böyük balığı saxlamaq, suyu çappıldatmasına, doğulduğu, yaşadığı çaya can atmasına doymadan baxmaq istəyir. Səhərisi görür ki, balıq ölüb. 33 il əvvəlin həmin gününü sezilməsi çətin olmayan qəhərlə xatırlayır: "Çaya atsaydım, ölməzdi..." - kövrəlir. Bu biçim təəssüfün titrəyişini necə hiss etməyəsən?..

Qamışlıya tətillərdə gedirdilər. Onda könlünün qubarı baxış-baxış, qədəm-qədəm, nəfəs-nəfəs əriyərdi. Ata-baba yurdunun mehrinə bələnərdi, bu mehrin eşidilməyən, hiss olunan xeyir-duasını alardı.

Göygöl rayon orta məktəbinin 9-cu sinfini bitirdi. Bakıda kimya-biologiya təmayüllü orta məktəbdə oxudu...

1995-ci ildə dövlətlərarası razılaşmaya əsasən Gülhanə Hərbi Tibb Akademiyasına qəbul imtahanlarını Türkiyədən gəlmiş müəllimlər götürürdü. Həyəcan vardı. İmtahana səngiməyən öyrənmək həvəsinin, öyrəndiklərinin, özünə inamın, qətiyyətin, bir də atasının "Bilik dağ çayı misallıdı, oğlum" kəlamının zəmanətiylə getdi. Və qəbul olundu. O gün Eldar müəllim də, Minayə xanım da Anarın on bir il əvvəl dediyi kəlmələri xatırladı: "Həkim olacam, həm də hərbçi həkim"...

Gülhanədə müəllimlər onun kimya, biologiya fənlərini nə qədər mükəmməl mənimsədiyinə heyrətlənirdi. Bu, öyrənmək istəyən tələbəni öyrətmək istəyini vaxt məhdudiyyətindən çıxardırdı; oxuyurdu, soruşurdu, öyrənirdi Anar. Ondan bir kurs yuxarı oxuyan, indi Mərkəzi Hərbi Klinik Hospitalın kardiologiya şöbəsinin müdiri olan tibb xidməti mayoru Səməd Səmədli xatırlayır: "Anar axşamlar nələrisə oxumadan, təkrarlamadan yatmazdı". Səməd həkim qürurla onu da deyir ki, Anar haqq-ədalət mücahidiydi (bunun uşaqlığında təbiətin sükutunu pozan şimşək çaxışını sevməməsiylə başladığını güman eləmək günahdımı?)

Anar həkimlə söhbətdə məlum oldu ki, Türkiyədən yayımlanan "Qurtuluş Ertuğrul" serialına o da baxır. Düşündüm: yüz illər əvvəl Ərtoğrul xalq naminə ədalət qılıncı sıyırmışdı, yüz illər sonra Anar Eldar oğlunun xarakteri ədalət naminə qətiyyət qılıncına dönüb...

"Leninqrad Hərbi Tibb Akademiyasında təhsil almağı gözaltılamışdım, Gülhanədə oxudum. Nə yaxşı Gülhanədə oxudum" - bənzərsiz təbəssümündə qüruru, sevinci, sevgini, könül xoşluğunu sezmək çətin deyil...

Xarici dövlətlərdə elmi konfranslara Anar Əmrahov da göndərilirdi, dəvət edilirdi. Orada "ov" sonluğunu görüncə soruşurdular: "Rusiyadansanmı?". Azərbaycandan olduğunu, azərbaycanlı olduğunu deyirdi. Qəribə baxışların tünlüyündən ürəyi burxulurdu. O baxışlar inamsız baxışlarıydı (görəsən, o anlarda könlündən "Azərbaycanı, azərbaycançılığı sizə tanıdacam!" demək keçirmişmi? Bu haqda heç nə soruşmadım. Soruşmadığım sualı özüm cavablandırıram: bəli, xalqını, Vətənini bunca sevən gənc belə deyərdi!) "Ov"dan can qurtarmağı qərara aldı. Çətinliklə də olsa buna nail oldu; Gülhanə Hərbi Tibb Akademiyasına Anar Əmrahov kimi daxil olan gənc oranı ürək-damar cərrahı Anar Əmrah kimi bitirdi.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində cərrah-həkim vəzifəsində xidmət etdi...

...Bu təhsili istəyinin başlanğıcı bilirdi Anar Əmrah; hələ tələbəykən kimsəyə açmadığı niyyətinin işığı çəkməkdəydi onu - ürək cərrahı olmaq, ürəklərin keşiyini çəkmək istəyirdi. Elə niyyət var ki, mahiyyəti etibarilə zamanında cəmiyyətə gərəkli olur. İllərdən sonra təsdiqləndi ki, ürək-damar cərrahı Azərbaycana nə qədər gərəkli oldu...

2005-ci ildə yenidən Gülhanə; uzman olacaqdı (niyəsə, "uzman", "loğman" ifadələri arasında eynilik görürəm. Loğman ifadəsi mənə İbn-Sinanı xatırladır...)...

...Yenidən Gülhanə Hərbi Tibb Akademiyasının tələbəsiydi. Ürək-damar cərrahı uzmanı olacaqdı. Onu hərdən Bakıya çağırırdılar. Gəlirdi. Mərkəzi Hərbi Klinik Hospitalın "Ürək-damar cərrahiyyəsi" şöbəsinin necə qurulduğunu gördü, sinəsi ürəyinə darlıq edirdi, xəyalən zamanı qabaqlayırdı... Uşaqlara həmişə qədərsiz sevgisi olub. Elə bu sevgiyə sədaqətiylə Gülhanədə iki il uşaq cərrahlığını da öyrəndi...

2013-cü ildə Mərkəzi Hərbi Hospitalın "Ürək-damar cərrahiyyəsi" şöbəsinin rəisi təyin olundu. Bu yaşda, bu rütbədə (leytenant) bu vəzifəyə təyin edilməsini böyük etibar bildi. Hospitalın açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dedikləri məsləhət kimi, Ali Baş Komandanın əmri kimi düşüncələrinə hopdu. "Ürəklərin keşiyini çəkəcəm!" - dedi. Bu kəlmələri kimsə eşidə bilməzdi, özünə demişdi...

Anar Əmrah yüzlərlə əməliyyat aparıb. Orta hesabla hər əməliyyat 4-5 saat çəkib. Minlərlə saat ölümlə mübarizə. Ürəklərin keşiyini çəkmək budur!..

"Əməliyyat döyüş kimidi..." - Anar Əmrah belə deyir. 300 əməliyyat ölüm üzərində qələbəylə nəticələnmişdi. Təkcə Rəsul müəllim. Əməliyyata götürülənə kimi bir-neçə dəfə infarkt keçirən Rəsul müəllimin də əməliyyatı uğurla başa çatdı. Bu sevinci sonacan yaşaya bilmədilər - dörd gündən sonra Rəsul müəllim gözlənilmədən insult keçirdi. Anar Əmrahın illərdən sonra da həmin günün təəssüfünü sezmək çətin deyil...

Kimsənin könlünü qırmayan, "Ən vacib ziyarət könül ziyarətidi" fəlsəfəsiylə yaşayan Anar Əmrah, "Beş ürək qüsuru ilə doğulmuş 7 yaşlı Əlisoltanın əməliyyatı 15 saat davam etdi. Onun yaşamasını taleyimin mənə verdiyi mükafat bilirəm" - deyir. Onsuz da təbəssümü əskik olmayan gözlərində bənzərsiz bir təbəssüm gəzişir; bu bənzərsiz təbəssümü Əlisoltanın yaşanılacaq illərinə uzman xeyir-duası bilirəm...

Heç zaman unutmadığı (unutmayacağı!) ustadı Harun Tatarı - onun qabiliyyətini (buna istedad deyilir) ata sevgiləriylə dəyərləndirən ünlü müəllimini ehtiramla xatırlayır. Onun kəlamları yaddaşına o qədər məhrəmliklə hopub ki: "Gördüyün işi kimsənin bəyənməsi üçün görmə. Öz işini özün bəyən. Əsla vaz keçmə...". Yüzüncü əməliyyatına Harun Tatar da gəlmişdi - qəlbinin hökmüylə, öyrəncisinin uğurlarına öyrətmənlik (ustadlıq) sədaqəti kimi. "Anar mənim gəncliyimdir" - kəlmələrinin sevgi, qürur qatını onda hamı aydınlığıyla gördü, bu sevginin yaşarılığını hamı hiss etdi...

Aprel döyüşlərində beyinə gedən damarı ciddi zədələnmiş İlhamı da, Elnuru da Anar Əmrah həyata qaytarıb, yüksək elmi biliyin, milli-xəlqi ruhun, sevginin qüdrətiylə ölümün əlindən alıb.

Kapitan Elşad Həşimov Talış kəndi istiqamətində gedən döyüşlərdə son dərəcədə ağır yaralanmışdı. Helikopterlə Mərkəzi Hərbi Kliniki Hospitala göndərilmişdi. Ayağı amputasiya oluna bilərdi. Şöbənin əməkdaşları Anar Əmrahın rəhbərliyiylə iki ay davam edən mücadilə apardı. "16 saat çəkən bu əməliyyatdan sonra ustadım Harun Tatarın bir məsləhətini xatırladım: "Əsla vaz keçmə". Sonacan mübarizə apardıq. Elşadın "Sağalıb xidmətimi davam etdirəcəm" kəlmələrini şöbəyə ən böyük mükafat bilirəm. Azərbaycan zabitinin minnətdarlığı da Vətənə xidmətə söykənir. Bu Vətən sevgisinə görə mən ona minnətdaram..."...

Kapitan Elşad Həşimov cərrah Anar Əmraha minnətdarlıq eləyib, Anar Elşada minnətdarlıq eləyir. Mən (deməli, "Azərbaycan Ordusu", deməli, cəmiyyət) hər ikisinə...

Bütün pasientlərini özünün əzizi bilən Anar Əmrah 6 aylıq uşağı da, 78 yaşlı kişini də əməliyyat edib.

Bəzi uşaqların ürək qüsurları ilə doğulması Anar Əmrahın düşüncələrini silkələyirdi, könül dünyasını titrədirdi. Müdafiə nazirinə müraciət etdi. İstəyinə razılıq verildi.

Bir ayda ödəniş edilmədən 6 uşaq əməliyyat olunub. Müdafiə Nazirliyi Mərkəzi Hərbi Klinik Hospitalın "Ürək-damar cərrahiyyəsi" şöbəsinin vasitəsilə sabahlarımızın vətəndaşlarının sağlamlığını təmin edir; Anar Əmrah uşaqların da ürəyinin keşiyindədi...

"Hər əməliyyatda həyəcan olur. Bu həyəcanın ömrü xəstə ilə ilk təmasacandı" - deyən Anar Əmrah 2 yaşlı Nərmini də xatırlayır, 4 yaşlı Kərəmi də, Fəxrəddini də, kapitan Cabir Vəliyevi də, açıq ürək əməliyyatı apardığı Şükür müəllimi də, ...

Anar Əmrah təvazökar insandı; bu yaxınlarda Türkiyədə keçirilən elmi konfrasda o da iştirak edib. Konfransda 2500-dən çox məruzə dinlənilib. Azərbaycanlı cərrahın məruzəsi olduqca böyük maraq doğurub. Bu qüruru qürurla yaşadığını incə təbəssümlə təsdiqləyir Anar Əmrah...

Üç nəfər rezident ürək-damar cərrahiyyəsinin incəliklərini uzman, tibb xidməti polkovnik-leytenantı Anar Əmrahdan öyrənir.

Klassik musiqini də sevir, dinləyir, saz havalarını, xalq mahnılarını da. "Ruhani" ruhunun sığalıdı, "Sarıtel" - tumarı. "Qaraçı" həsrətinin qılıqçısıdı, "Dilqəmi" - qəhərinin. "Paşaköçdü"nü dinləyəndə könlü Göyçəni haraylayır:

*...göy çəməni,*
*Əzizlə göycə məni.*
*"Paşaköçdü" dedilər,*
*Səslədi Göyçə məni...*

bayatısını giziltilərinə çarəsiz məlhəm etmək istəyir ürək-damar cərrahı Anar Əmrah.

Oğlu Rəsul hələ bilmir ki, atası ürəklərin keşiyini çəkir; Rəsulun 1 yaşı var. Ürəklərin keşiyini çəkmək nə deməkdi, necə çəkilir, bunu böyüyəndə biləcək...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Suallar:**
**1. Heydər Əliyev ümummilli liderimizdir.**
**2. XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanda dövlət quruculuğu.**

**Mövzu:** Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideridir.

*Heydər Əliyev ümummilli liderimizdir*

Azərbaycan dövləti və onun əbədiliyi ümummilli liderimiz Heydər Əliyevin adı, fəaliyyəti, xalqımızın bu günü və gələcəyi naminə göstərdiyi misilsiz xidmətləri ilə qırılmaz surətdə bağlıdır. Onun hakimiyyətdə olduğu illərdə Azərbaycanda, sözün həqiqi mənasında, böyük quruculuq, yaradıcılıq və tərəqqi dövrü yaşanmışdır. Bu isə Heydər Əliyevin Azərbaycanı siyasi müstəqilliyə aparan yolda ən mühüm və həlledici mərhələ olan iqtisadi müstəqilliyə tam nail olduğunu göstərirdi. 80-ci illərin əvvəllərində Heydər Əliyevin Sovet İttifaqının Siyasi Bürosunda fəaliyyətə başlaması, onun zəkasına və iş qabiliyyətinə verilən yüksək qiymətin bariz nümunəsi idi.

Lakin 80-ci illərin ikinci yarısında Mixail Qorbaçovun hakimiyyətə gəlişi ilə SSRİ-nin türk-müsəlman xalqlarına, ilk növbədə bu xalqın şəksiz lideri Heydər Əliyevə qarşı məkrli planlar hazırlanmağa və həyata keçirilməyə başlandı. Bütün bu məsələlərdə Heydər Əliyevin tutduğu prinsipial, humanist və qətiyyətli mövqe 1987-ci ildə SSRİ hökumətinin tərkibindən istefası ilə nəticələndi. Bunun ardınca Mixail Qorbaçovun və onun ətrafındakı millətçi erməni dairələrinin Azərbaycana təzyiqi daha da gücləndi. Azərbaycanı parçalamaq və xalqın inkişafının qarşısını almaq üçün ortaya qondarma Dağlıq Qarabağ problemi atıldı.

Xalq 1988-ci ilin ilk mitinqlərindən başlayaraq Azərbaycanın üzləşdiyi ciddi problemləri həll etməyə qadir siyasətçini görür və onun yenidən Azərbaycan rəhbərliyinə qayıtmasını arzulayırdı. Minlərlə adamın mitinq və nümayişlərə Heydər Əliyevin portretləri ilə çıxması bu arzunun ümumxalq miqyasında açıq şəkildə ifadəsi idi.

Lakin həmin dövrdəki satqın respublika rəhbərliyi, mərkəzin etimadını qazanmaq üçün dəridən-qabıqdan çıxan Vəzirov-Mütəllibov alyansı milli birlik haqqında, xalqı düşdüyü ağır vəziyyətdən qurtarmaq barədə düşünmürdü. Onların xalqın taleyinə laqeydliyi, xəyanəti 1990-cı il yanvarın 20-də Bakıya Sovet qoşun hissələrinin yeridilməsi və Azərbaycan xalqının ədalətli, haqlı tələblərinə silah tətbiq edilməsinə gətirib çıxardı.

1990-cı ilin qanlı Yanvar hadisələri zamanı Moskvada yaşayan Heydər Əliyev sülhsevər Azərbaycan xalqına qarşı güc tətbiq edilməsini qətiyyətlə pisləyən bəyanatla çıxış etdi və Azərbaycanın haqq səsini dünyaya yaydı. Moskvada verdiyi bəyanatlarla 20 Yanvar cinayətinin mahiyyətini, onu törədən qüvvələrin niyyətini aydın şəkildə göstərdi.

1991-1993-cü illərdə Heydər Əliyevin Naxçıvana rəhbərlik etməsi Azərbaycanın bu qədim guşəsinin erməni işğalına məruz qalmasında mühüm rol oynadı. Həmin dövrdə Azərbaycanın üçrəngli bayrağı ilk dəfə Naxçıvan Ali Məclisində qaldırıldı.

1993-cü ildə Azərbaycanda siyasi və hərbi vəziyyət son dərəcə təhlükəli şəkil aldı. Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması tələbi daha tez-tez səsləndi. Nəhayət, iyunun 9-da o, Bakıya gəldi, vətəndaş müharibəsinin alovunu söndürmək üçün Gəncəyə getdi. 1993-cü il iyunun 15-də müstəqil Azərbaycanın siyasi tarixinin məsul və şanlı günlərindən biri yaşandı. Azərbaycan Respublikası Milli Məclisinin iclasında Heydər Əliyev Ali Sovetin sədri seçildi.

Azərbaycan dövlətinin xilaskarı kimi Heydər Əliyevin qarşısında yalnız ölkəni siyasi böhrandan çıxarmaq deyil, həm də xalqın geniş təbəqələrini Azərbaycan dövlətçiliyi ideyası ətrafında birləşdirmək, ona ümid və inam aşılamaq, qətiyyət və mübarizlik təlqin etmək vəzifəsi dayanırdı. Heydər Əliyevin sarsılmaz iradəsi, dövlətçilik təcrübəsi və siyasi uzaqgörənliyi ilə 1993-cü ilin avqustunda Azərbaycanın ərazi bütövlüyünü cənubdan təhlükə altına alan oyuncaq "Talış-Muğan Respublikası" iddiasına xalqın iradəsi ilə son qoyuldu. Avqustun 29-da keçirilən prezidentə etimad məsələsinə dair referendumda xalq Əbülfəz Əliyevin timsalında AXC-Müsavat iqtidarına etimadsızlıq göstərərək öz tarixi hökmünü verdi. 1993-cü il oktyabrın 3-də isə Azərbaycan xalqı böyük inam və ehtiramla Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Siyasi hakimiyyətə qayıtdığı ilk gündən Heydər Əliyev elə bir dövlət qurmağa başladı ki, bu dövlət həm özünü, həm də vətəndaşlarını qorumağa tam qadir olduğunu dönə-dönə sübut etmişdir. 1991-ci ilin oktyabrında Surət Hüseynovun, 1995-ci ilin martında Cavadov qardaşlarının başçılığı ilə qaldırılan qiyamlar prezidentin və xalqın yekdil iradəsi ilə dərhal yatırıldı.

Ümummilli liderimiz Heydər Əliyev dövlət quruculuğu sahəsində böyük işi məntiqi şəkildə davam etdirərək müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanmasına rəhbərlik etdi. Azərbaycanın siyasi tarixində yeni bir era açan və onun dövlət müstəqilliyinin, cəmiyyətdə insan azadlığının və demokratik dəyərlərin əsas qarantına çevrilən bu konstitusiya 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edildi. İlk dəfə olaraq demokratik şəraitdə çoxpartiyalılıq əsasında Azərbaycan parlamenti - Milli Məclis seçildi. Azərbaycan Respublikası dünyanın azad, suveren dövlətləri arasında özünə layiq yer tutdu. Yaxın tarixi keçmişin bütün çətinlik və məhrumiyyətlərini görmüş Azərbaycan xalqı 1993-cü il iyunun 15-dən sonra, ölkəsi və özü üçün tamamilə yeni bir tarixin yazıldığını və yaşadığını görür. Bu, onun öz liderinə olan inamını qat-qat artırır.

*XX əsrin sonu-XXI əsrin əvvəllərində Azərbaycanda dövlət quruculuğu*

SSRİ-nin dağılması, Azərbaycanın öz müstəqilliyini elan etməsi, dövlətimiz qarşısında müstəqil siyasət yeritmək, dünya birliyinin qabaqcıl ölkələrilə qarşılıqlı münasibətlər qurmaq kimi mürəkkəb bir məsələ qoydu. Bu mürəkkəbliyi həm də müharibə vəziyyəti şərtləndirdi. Respublikanın geosiyasi vəziyyəti rəhbərliyi qonşu ölkələrlə son dərəcə ehtiyatlılıq, ideoloji və siyasi qarşıdurmasız münasibətlər qurmağa sövq edirdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Bu sənədlə Azərbaycan hüquqi baxımdan müstəqillik əldə etsə də, əslində, xalqın mandatı ilə hakimiyyəti ələ keçirmiş Mütəllibov imperiyaya yarınmaq siyasəti yeridirdi ki, bu da xalqımız və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilmirdi.

Yalnız ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti düzgün daxili və xarici siyasət yeritməyə başladı. Həmin dövrdə Qafqazda real gücü və təsir dairəsi olan Rusiyanın maraqları nəzərə alındı və Azərbaycan Kollektiv Təhlükəsizlik Haqqında Müqaviləni imzalayaraq MDB-yə qoşuldu. Sonrakı hadisələr göstərdi ki, Azərbaycanın MDB-yə daxil olması hərbi və siyasi böhrandan çıxmaq üçün yeganə düzgün siyasi addım idi. Bununla belə, Azərbaycan dövləti Türkiyə və İranla münasibətlərində də ciddi siyasi razılığa gələ bildi. Heydər Əliyevin Ankaraya səfərləri göstərdi ki, Azərbaycanın yeni kursunda Türkiyənin xüsusi çəkisi var və ikitərəfli əməkdaşlıq bundan sonra da inkişaf etdiriləcək. 1994-cü il mayın 12-də Azərbaycan-Ermənistan münaqişəsində əldə olunan atəşkəs Dağlıq Qarabağ böhranından çıxmaq üçün tezliklə siyasi yollar axtarmağı tələb edirdi. Bu baxımdan ATƏT-in Lissabon sammitində 53 ölkənin dəstəyi ilə Dağlıq Qarabağ münaqişəsinə dair qəbul olunmuş prinsiplər, Heydər Əliyev başda olmaqla, Azərbaycan diplomatiyasının parlaq qələbəsi idi. Lissabon sammitində qəbul olunmuş prinsiplər Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi baza idi.

1997-ci ilin iyul-avqust aylarında Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a ilk dövlət səfəri ölkəmizin xarici siyasətində mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu uğurlu səfər nəticəsində Amerika-Azərbaycan siyasi-iqtisadi əlaqələrinin inkişafı və bədnam 907 nömrəli qərarın ləğvi üçün dəyərli addımlar atıldı.

Hazırda Azərbaycan Respublikası dünyanın ən böyük dövlətləri ilə təkcə siyasi əlaqələrini deyil, həm də iqtisadi əlaqələrini genişləndirir, inkişaf etdirir. Hazırda Azərbaycanın diqqəti dünya dövlətlərarası iqtisadi münasibətlər sistemində layiqli yer tutmağa yönəlib. ABŞ, Yaponiya, Çin, Rusiya, Türkiyə, Böyük Britaniya kimi böyük ölkələrlə normal iqtisadi əlaqələr yaradılıb.

Xarici siyasətdə böyük dövlətlərin maraqlarını nəzərə alan Azərbaycan bu maraqlardan özünün inkişafı üçün istifadə etməyə çalışır. Lakin qarşıda duran ən kəskin problem yenə də Dağlıq Qarabağ konfliktidir. Son zamanlar Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe bu problemin həll olunması yolunda əngəllər yaradır. Bu baxımdan Azərbaycan dövləti maneələri dəf etmək və Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə tənzimləmək üçün Lissabon Zirvə toplantısında qəbul olunmuş prinsipləri rəhbər tutaraq NATO ilə hərbi əməkdaşlığa üstünlük verir. Azərbaycanın NATO dövlətlərinin keçirdikləri müxtəlif seminarlarda, konfranslarda iştirak etməsi, "Sülh Naminə Tərəfdaşlıq" proqramında yaxından iştirakı müasir ordumuzun inkişafında müstəsna əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu diplomatik addımları Azərbaycan-NATO əməkdaşlığı üçün perspektiv şərait yaradır. Bu, torpaqlarının 20 faizi düşmən tapdağında olan Azərbaycan dövləti üçün mühüm məsələdir. ABŞ və NATO ilə əməkdaşlıq gələcəkdə Azərbaycan dövlətinin müstəqillik yolunda irəliləyişinə və ərazi bütövlüyünə zəmanət verə biləcək mühüm amildir.

Ümummilli liderimiz Heydər Əliyevin ən böyük xidmətlərindən biri dövlətçiliyimizin qarantı olan güclü Azərbaycan Ordusunun yaranmasıdır. Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk günlərdən ordu quruculuğuna xüsusi diqqət yetirirdi. Hələ sovetlər ittifaqı tərkibində olan zaman Azərbaycanda Heydər Əliyev tərəfindən yaradılmış C.Naxçıvanski adına Hərbi Liseyin, yenidən hakimiyyətə qayıtdıqdan sonra isə hərbi məktəblərdə NATO standartları səviyyəsində hərbi təhsilin yaradılması, orduya, əsasən, peşəkar hərbi kadrların cəlb edilməsi qısa müddət ərzində öz bəhrəsini verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin həyatı Silahlı Qüvvələrin bütün şəxsi heyəti üçün nümunədir. Onun mənalı həyat yolu, dövlətçiliyin möhkəmləndirilməsi və xalqımızın həyat səviyyəsinin yaxşılaşdırılması uğrunda apardığı mübarizə əsl vətənpərvərlik məktəbi olmaqla, hər bir əsgər və zabit üçün örnəkdir.

Bu gün respublikamız demokratik cəmiyyətin qurulması yolu ilə qururla irəliləyir. Neft müqaviləsinin, Böyük İpək Yolunun bərpası ideyasının həyata keçirilməsi, Azərbaycan Respublikasının Avropa Şurasına üzv seçilməsi, həmçinin, iqtisadiyyatın, elmin, mədəniyyətin inkişaf etdirilməsi və digər sahələrdə olan tərəqqi son dövrlərdə qazanılmış nailiyyətlərdəndir.

Hazırda regionda və dünyada elə bir iqtisadi, siyasi, mədəni hadisə olmur ki, Azərbaycan dövləti orada layiqincə təmsil olunmasın və öz sözünü deməsin. Respublikamızın daxilində gedən demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət bu gün dünyanın ən nüfuzlu dövlətlərinin, ən nüfuzlu təşkilat və qurumların diqqətini Azərbaycana yönəltmişdir. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan mühüm dövlətçilik strategiyasının bəhrəsidir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimlər keçiriləcək



*Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-dən 5-dək hər iki ölkənin Silahlı Qüvvələrinin birgə döyüş atışlı taktiki təlimləri keçiriləcək.*

Təlimlərdə iştirak edəcək Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyətinin hərbi hava bazalarından birində təntənəli qarşılanma mərasimi keçirilib.

Türkiyəli hərbi qulluqçuları hərbi birliyin zabiti polkovnik Münasib Babayev və Türkiyənin ölkəmizdəki hərbi attaşesi briqada generalı Zafer Ocak qarşılayıb. Hərbi orkestr dövlət himnlərini səsləndirdikdən sonra Türkiyə hərbi qulluqçuları təlim dövründə yerləşəcəkləri "N" hərbi hissəsinə yola düşüblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissənin ərazisində ucaldılmış büstü önünə gül dəstələri qoyulub, Ulu Öndərin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Türkiyə nümayəndə heyətinin rəhbəri polkovnik Hakan Açıkgöz birgə təlimlərin vacibliyini vurğulayaraq qeyd edib ki, keçirilən təlimlərdə qazanılan təcrübə hər iki ölkənin gələcək əməliyyat planlarına müsbət təsir göstərəcəkdir.

Təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsi həyata keçirməklə koordinasiyanı inkişaf etdirmək, qərargahların müştərək planlaşdırmaları, bölmələrin hazırlığı və əməliyyatları icra etmə qabiliyyətini yüksəltməklə iki ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Birgə təlimlərdə şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və minaatanlar, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin, qruplaşmanın havadan mühafizəsi məqsədi ilə müasir müdafiə kompleksləri ilə silahlanmış hava hücumundan müdafiə və zenit-raket bölmələri iştirak edəcək.

Təlimlərə hazırlıq dövründə türkiyəli hərbçilər üçün bir sıra mədəni-kütləvi tədbirlərin keçirilməsi planlaşdırılıb.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

# Hərbi liseyin ildönümü qeyd edildi



*Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yarandığı vaxtdan 46 il keçir. Arxada qalmış illər ərzində bu təhsil ocağını yüzlərlə, minlərlə azərbaycanlı gənc bitirərək ali hərbi məktəblərə daxil olub.*

Təhsil ocağının 46-cı ildönümünə həsr olunmuş mərasimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə rəis müavini polkovnik-leytenant Kamran Nəsibov açıq elan etdi. Ulu öndər Heydər Əliyevin, torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın ruhu bir dəqiqəlik sükutla yad olundu. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.

Çıxış üçün söz C.Naxçıvanski adına Hərbi Liseyin rəisi vəzifəsini icra edən polkovnik Elman Namazova verildi. Polkovnik əvvəlcə iştirakçıları salamladı və şəxsi heyətə ünvanladığı təbrik məktubunu oxudu. Məktubda təhsil ocağının yaradılması və inkişafında Ümummilli Liderimizin müstəsna xidmətləri qeyd olunub.

Sonra polkovnik Elman Namazov Hərbi liseyin yaradılmasından ətraflı söz açaraq qeyd etdi ki, 1971-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və uzaqgörən siyasəti nəticəsində belə əhəmiyyətli tədris ocağı yaradıldı. "Heç kimə sirr deyil ki, Sovet rejiminin hökmran olduğu bir vaxtda milli zabit kadrlarının hazırlanmasına yönəldilmiş təşəbbüs böyük cəsarət və qətiyyət tələb edirdi. Bu addım yalnız xalqının gələcəyini düşünən, xalqına, millətinə qəlbən bağlı olan, həyatını Vətəninin çiçəklənməsinə həsr edə bilən dahi şəxsiyyətlər tərəfindən atıla bilərdi.

Azərbaycanda hakimiyyətə gəldiyi ilk illərdən ulu öndər Heydər Əliyevi düşündürən əsas məqsədlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi məsələsi idi. O, bütün fəaliyyəti dövründə öz taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşıb və onların xidmətini yüksək qiymətləndirib.

Ulu Öndər hesab edirdi ki, azərbaycanlı gəncləri ali hərbi məktəblərə hazırlamaq məqsədilə respublikada hərbi təyinatlı bir məktəb yaratmağın vaxtı çatıb. Belə bir məktəbin yaradılması Azərbaycanın gələcəyi üçün çox mühüm hadisə olacaqdı.

1971-ci ildə məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü, zəhməti və uzaqgörənliyi sayəsində, böyük əziyyətlər bahasına tarixi addım atıldı. Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Bu hərbi məktəbi bitirənlərin Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna dərəcədə rolu vardır. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunudur. Onlar Qarabağ müharibəsində böyük hünər və rəşadət göstərdilər".

Natiq çıxışının sonunda bildirdi ki, Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı sayəsində Cəmşid Naxçıvanski adına Hərbi Liseydə uğurlu islahatlar həyata keçirilir. "Hərbi liseydə xidmət edən hər bir zabit, gizir və müəllim ümummilli liderimiz Heydər Əliyev ideyalarına həmişə sadiq qalacaq, Silahlı Qüvvələrimiz üçün peşəkar zabit kadrlarının hazırlanması işində üzərinə düşən vəzifələri şərəflə yerinə yetirəcəkdir".

Kursantlar adından Anar Ağazadə çıxış etdi. O komandanlığı əmin etdi ki, ordumuzun bacarıqlı zabiti, ölkəmizin layiqli vətəndaşı olacağıq.

Sonda Hərbi liseyin bir qrup zabiti və qulluqçusu fəxri fərmanla, qiymətli hədiyyə ilə mükafatlandırıldı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə və ABŞ prezidentlərinin görüşü mayın 16-17-də olacaq



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-ın dövlət başçısı Donald Trampla görüşünün vaxtını açıqlayıb.

Ərdoğan görüşün mayın 16-17-də Vaşinqtonda keçiriləcəyini bildirib. Onun sözlərinə görə, görüş barədə razılaşma bu yaxınlarda baş tutmuş telefon danışığı zamanı əldə olunub.

### ABŞ Əfqanıstanın Gilmənd əyalətinə 300 dəniz piyadası göndərir



ABŞ Silahlı Qüvvələrinin komandanlığı Əfqanıstan ordusuna təlim keçmək üçün Gilmənd əyalətinə 300-ə yaxın dəniz piyadası göndərir. Bu barədə Əfqanıstan Müdafiə Nazirliyinin nümayəndəsi Dövlət Vəziri bildirib.

Dəniz piyadaları Gilməndə aprelin sonunda gələcək. Onlar snayperlərin təlimi ilə məşğul olacaq, həmçinin əfqan əsgərlərinə örtülü mövqelərdən atəş açmağı və digər taktiki üsulları öyrədəcəklər.

2014-cü ildə Amerikanın hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən yaraqlılar böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Belə ki, ölkənin şimalındakı Qunduz şəhərini və hökumət qüvvələrinin forpostu sayılan Sanqin şəhərini ələ keçirən taliblər hazırda Kabildən cənub-qərbdə yerləşən Qəzni əyalətinin eyni adlı administrativ mərkəzi uğrunda döyüşlər aparır. Həmçinin, regionda İŞİD qruplaşmasının da təsir dairəsi artmaqdadır.

Gilmənd əyaləti Əfqanıstanın ən qaynar nöqtələrindən biridir. Təkcə son ayda "Taliban" bu istiqamətdə 4 ABŞ hərbçisini öldürüb.

### İraq hərbçiləri qərbi Mosulun daha 2 rayonunu yaraqlılardan təmizləyib



İraq hərbçiləri cümə axşamı günü qərbi Mosulun daha iki rayonunu İŞİD yaraqlılarından geri alıb.

Güc strukturları At-Tavra rayonunu tamamilə azad ediblər. Əməliyyatların birləşmiş komandanlığı, həmçinin Nasr rayonunun azad olunduğunu bildirib.

Hazırda İraq hərbçiləri və başda ABŞ olmaqla beynəlxalq koalisiya Mosulun İŞİD-dən azad edilməsi uğrunda əməliyyatları davam etdirir. Hökumət qüvvələri hələ mart ayında Mosulda terrorçuların tam mühasirəyə alındığını və onların Suriyadakı yaraqlılarla əlaqələrinin kəsildiyini bəyan etmişdi. Güc strukturları şəhərin qərb hissəsinin üçdə ikisinin nəzarətə alındığını bildirmişdilər.

### Fransa Prezidenti Parisdə törədilən hadisənin terror aktı olduğunu deyib



Parisin "Yelisey Çölləri" prospektində silahlı şəxs polis əməkdaşlarına hücum edib. Hadisə nəticəsində bir polis əməkdaşı həlak olub, üç polis əməkdaşı yaralanıb. Onlardan ikisinin vəziyyətinin ağır olduğu bildirilir.

Hadisəni törədən şəxs zərərsizləşdirilib. Şahidlər bildiriblər ki, ətrafda insanların olmasına baxmayaraq silahlı şəxs maşından düşərək birbaşa polisə hücum edib.

Prezident Fransua Olland xalqa müraciət edərək görülən təhlükəsizlik tədbirlərindən danışıb. Fransa Prezidenti aprelin 21-də səhər saat 8-də təhlükəsizlik şurasının iclasının keçiriləcəyini bildirib. Hadisənin terror aktı olmasını qeyd edib. Bildirilib ki, İŞİD terror aktını öz üzərinə götürüb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# “Qoy, güclülər qalib gəlsin”

C.Naxçıvanski adına Hərbi Liseydə keçirilən fizika fənni üzrə viktorina intellektual oyununun final mərhələsində 4 komanda - "Təbriz", "Urfan", "Əbubəkir" və "Raquf" iştirak edirdi. Komandaların adları aprel döyüşlərində şəhid olan döyüşçülərin adlarıdır. Bəli, torpaq uğrunda şəhid olmuş oğullar unudulmur, daim ehtiramla xatırlanır, anılır.

Böyük maraq kəsb edən bilik yarışmasını fizika müəllimi Mətanət İmamquluyeva və mayor Natiq Rəhimov idarə edirdi.

Komanda üzvləri suallara tez və düzgün cavab tapmaq üçün bütün bilik və bacarıqlarını səfərbər edir, yarışın qalibi olmağa can atırdılar. Suallar birbir səslənir, kursantlar düşünür, fikirlər çarpazlaşır, cavablar götür-qoy edilib hazırlanır, vaxt, zaman nəzərə çarpmadan axıb gedir. Yavaş-yavaş xallar toplanır, hesablanır...

Nəhayət, bir saat yarımdan çox davam edən yarışma başa çatır. Qaliblər elan edilir. Məlum olur ki, "Əbubəkir" komandasının üzvləri daha yaxşı nəticə göstərərək 1-ci pilləyə çıxıblar. "Urfan"ın üzvləri 2-ci yerlə kifayətlənməli olublar. "Raquf" komandası yarışmanı 3-cü pillədə başa vurub.

Qalib komandalar yarışda göstərdikləri müsbət nəticələrə görə mükafatlandırıldılar.




* * *

C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının 46-cı ildönümü ilə əlaqədar bölüklər arasında idman yarışı keçirildi. Yarışın qaydalarına əsasən, idmançılar 100 metr məsafəyə qaçmalı, 80 metrlik maneəli məsafəni dəf etməli, sonra kəndirdartma mərhələsində güclərini sınaqdan keçirməli idilər.

Kursantlar qarşılarına qoyulan tapşırıqları bacarıqla yerinə yetirib komandalarını qaliblərin sırasına çıxarmağa çalışırdılar.

C.Naxçıvanski adına Hərbi Liseyin idman rəisi Fərhad Əliyev qeyd etdi ki, yarışda 9 komanda iştirak edir. "Kursantlar yarışa çox ciddi hazırlaşıblar. Deməli, yarış gərgin mübarizə şəraitində keçəcək. Qoy, güclülər qalib gəlsin", - deyə idman rəisi fikirlərini bizimlə bölüşdü.

Yarışlarda daha böyük mətinlik nümayiş etdirən 8-ci bölük 1-ci pilləni tutmağı bacardı. 9-cu bölük 2-ci, 4-cü bölük isə 3-cü yerə çıxıb. Yarışın qalibləri fəxri fərmanlarla mükafatlandırıldılar.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# “Ermənilik xisləti və erməni terroru”

Tədqiqatçı alim Sövdayar Muradovun oxucuların ixtiyarına verdiyi yeni kitab "Ermənilik xisləti və erməni terroru" adlanır.

AZƏRTAC xəbər verir ki, alimin bu monoqrafiyasında dünya yazarlarının erməni hiyləgərliyinə qarşı əsl həqiqəti əks etdirən fikirləri yer alıb.

Böyük zəhmət bahasına başa gələn və yorulmaz tədqiqatların bəhrəsi olan bu sanballı nəşrdə bir daha vurğulanır ki, dünya yazarları birmənalı olaraq ermənilərə qarşı öz nifrətini gizlətmədən onları lənətləyirlər. Mənfur qonşularımızın Azərbaycanda və dünya miqyasında törətdikləri terrorları, soyqırımları faktlar əsasında geniş kütləyə çatdıran müəllif bu mövzunun müasir dövrümüz üçün çox aktual olduğunu bir daha sübut edir.

Görkəmli alimlərin monoqrafiyaya yazdığı rəylərdə vurğulanır ki, kitab müasir dövrdə Qafqazda millətlərarası ziddiyyətlərin kəskinləşdiyi zamanda bütün oxucular, o cümlədən türk-müsəlman xalqları üçün çox dəyərlidir.

İnanırıq ki, müəllifin tarixi ədəbiyyat, arxiv və dövlət sənədləri əsasında yazdığı kitab bütün dünya oxucuları, xüsusilə də türk xalqları üçün çox qiymətli mənbə olacaq.

*Hərbi ənənələr, yeniliklər*

# Orsis T-5000 snayper tüfəngi



Rusiya istehsallı yüksək dəqiqliyə malik müasir ORSİS T-5000 snayper tüfəngi xüsusi təyinatlılar üçün nəzərdə tutulub. Hazırda hərbi təlimlərdə sınağı keçirilib. İxtiraçının dediyinə görə, snayperlər silahın davamlı olmağından, sınaq zamanı istismar keyfiyyətlərindən razı olduqlarını bildiriblər. Hazırda xarici ölkələrdən də bu silahın alınması üçün sifarişlər gəlir.

Yeni ORSİS T-5000 snayper tüfəngi "Promtexnologiya" silah zavodunda hazırlanıb. Silah bütün müasir tələblərə uyğundur və onun analoqu yoxdur. Xüsusiyyətlərinə görə tüfəng müxtəlif iqlim şəraitində 1.5 kilometrə qədər hədəfləri məhv etməyə qadirdir. Snayper tüfəngi iki - 338 Maqnum və 308 Vinçester kalibrlə istehsal ediləcək. Silahdan terrorizmə qarşı mübarizə zamanı da istifadə ediləcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi gözlənilir

Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçirilməsi ehtimalı var. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova Moskvada keçirilən brifinqdə bildirib.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün barədə suala cavab verən M.Zaxarova belə bir ehtimalın olduğunu və bu barədə dəqiq informasiya olan kimi məlumat verəcəyini bildirib.

M.Zaxarova, həmçinin qeyd edib ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun ATƏT-in baş katibi Lamberto Zanyerlə aprelin 26-da keçiriləcək görüşündə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr aparılacaq.

**AZƏRTAC**

# İdman

## Bakıda aprel döyüşlərinə həsr olunan beynəlxalq cüdo yarışı keçirilib



Aprelin 20-də Bakı İdman Sarayında aprel döyüşlərinə həsr edilmiş 21 yaşadək cüdoçular arasında beynəlxalq komanda yarışı keçirilib.

101 idmançının (82 oğlan, 19 qız) iştirak etdiyi beynəlxalq turnirdə 12 komanda qalib adı uğrunda mübarizə aparıb.

"Aran-Qarabağ", "Gəncə", "Judo 2012", "Masallı", "Neftçi İdman Klubu" İB, "Qəbələ", "Sumqayıt", "Şimal Qərb" zonası, Bakı UGİM-11, İOEUGİM-13 klubları ilə yanaşı, Rusiya və Gürcüstan millіləri də turnirdə iştirak ediblər. Gərgin idman mübarizəsi şəraitində keçən yarışlarda "Neftçi" idman klubu və Rusiya yığması üçüncü olub.

Final qarşılaşmalarından əvvəl yarışın açılış mərasimi keçirilib.

Həlledici görüşdə Gürcüstan millisi ilə "Judo 2012" komandası qarşılaşıb. Gürcüstan millisi qalib gələrək beynəlxalq yarışın qalibi olub.

## Kişi voleybolçulardan ibarət Azərbaycan millisi İsrail klubuna qalib gəlib



İsraildə təlim-məşq toplanışında olan kişi voleybolçulardan ibarət Azərbaycan millisi yoxlama oyunu keçirib.

IV İslam Həmrəyliyi Oyunlarına hazırlaşan yığma komandamız İsrailin "Yehuda" klubu ilə qarşılaşıb.

Gərgin idman mübarizəsi şəraitində keçən oyunda millimiz 4:1 hesablı qələbə qazanıb.

## Azərbaycan idmançıları Braziliya ciu-citsusu üzrə dünya çempionatında iki medal qazanıblar



Abu-Dabidə Braziliya ciu-citsusu üzrə dünya çempionatı keçirilir. Mundialda birincilik uğrunda 100 ölkədən 7 minədək idmançı mübarizə aparır.

Azərbaycan Ciu-Citsu Milli Federasiyasının birinci vitse-prezidenti Rəsul Məmmədov bildirib ki, yarışda ölkəmizi 4 idmançı təmsil edib.

Böyüklərin yarışında 94 kiloqram çəki dərəcəsində çıxış edən Azər Bəydullayev dünya çempionatının bürünc medalına sahib olub. 12-13 yaşlı idmançıların mübarizəsində isə milli komandamızın üzvü Xəqani Mürsəlov (41 kq) yarışı üçüncü pillədə başa vurub.

Dünya çempionatına aprelin 23-də yekun vurulacaq.

## Rafael Ağayev Rabat Premyer Liqasının qalibi olub



"Qəbələ" idman klubunun karateçisi Rafael Ağayev növbəti uğurunu qazanıb.

Dəfələrlə dünya və Avropa çempionu olan idmançımız bu dəfə Mərakeşin paytaxtı Rabatda fərqlənib. O, 34 ölkədən 384 idmançının qatıldığı karate üzrə Rabat Premyer Liqasının qalibi olub.

Yarışda 75 kiloqram çəki dərəcəsində çıxış edən Rafael Ağayev bütün rəqiblərini məğlub edib. Bununla da karateçimiz fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 138
Nüsxə 4660